# Azərbaycanın BMT-nin fəaliyyətlərinə töhfələri artır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

**Birləşmiş Millətlər Təşkilatı (BMT) müasir beynəlxalq münasibətlər sistemində hələ də universal qurum kimi qlobal sülhün, təhlükəsizliyin, inkişafın və insan hüquqlarının təmin olunmasında özünəməxsus mühüm rol oynayır. Bu təşkilatın fəaliyyət mexanizmlərində isə müxtəlif komissiyalar, şuralar və ixtisaslaşmış qurumlar xüsusi yer tutur. Azərbaycanın BMT komissiyalarında fəal və sistemli şəkildə təmsil olunması ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsi, milli maraqlarının müdafiəsi və qlobal proseslərdə söz sahibi olması baxımından strateji əhəmiyyət daşıyır.**



**Ölkəmiz BMT-də daha iki komissiyaya üzv oldu**

Azərbaycan BMT-yə üzv olduğu 1992-ci ildən etibarən təşkilat çərçivəsində çoxtərəfli diplomatiyaya xüsusi önəm verib. Ölkəmiz müxtəlif illərdə BMT Baş Assambleyasının, İqtisadi və Sosial Şuranın, İnsan Hüquqları Şurasının, eləcə də bir sıra tematik komissiyaların üzvü kimi fəaliyyət göstərib. Bu təmsilçilik Azərbaycanın beynəlxalq hüquqa sadiqliyinin, multilateralizmə verdiyi önəmin və qlobal problemlərin həllinə töhfə vermək niyyətinin göstəricisidir.

Elə bu günlərdə Nyu-York şəhərində BMT-də keçirilmiş seçkilərdə Azərbaycan BMT-nin Əhali və İnkişaf Komissiyasının (CPD) 2026-2030-cu illər üzrə və Sosial İnkişaf Komissiyasının (CsocD) 2025-2029-cu illər üzrə üzvlüyünə seçilib. Xarici İşlər Nazirliyinin məlumatına görə, hər iki komissiya BMT-nin iqtisadi və sosial məsələləri üzrə əsas orqanı olan ECOSOC-un funksional komissiyalarıdır. Hazırda ölkəmiz BMT ECOSOC-un 2025-2027-ci illər üzrə üzvləri arasında yer alır. BMT-nin Əhali və İnkişaf Komissiyası əhali dinamikasının, demoqrafik dəyişikliklərin, miqrasiya və urbanizasiyanın, eləcə də dayanıqlı inkişafla bağlı beynəlxalq müstəvidə yanaşmaların formalaşdırılmasına məsuldur. Sosial İnkişaf Komissiyası isə sosial siyasət, sosial müdafiə sistemləri, həssas qrupların hüquqları və rifahın artırılması kimi istiqamətlər üzrə fəaliyyətlər aparır. Qeyd edilən BMT komissiyalarında təmsilçilik ölkəmizin sosial müdafiə islahatları, dövlət xidmətlərinin innovasiyası, yoxsulluğun aradan qaldırılması üzrə uğurları və əhalinin rifahının yüksəldilməsi sahəsindəki prioritetlərinin beynəlxalq müstəvidə təqdim edilməsinə, eləcə də BMT-nin fəaliyyətlərinə töhfə və əməkdaşlıq imkanlarının gücləndirilməsinə imkan verəcək. BMT komissiyalarında təmsilçilik Azərbaycanın milli maraqlarının beynəlxalq müstəvidə daha effektiv şəkildə müdafiə olunmasına imkan yaradır. Xüsusilə uzun illər Ermənistanın Azərbaycana qarşı işğal siyasəti ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında BMT platformaları mühüm rol oynayıb. Azərbaycan diplomatiyası bu komissiyalar vasitəsilə beynəlxalq hüququn fundamental prinsiplərini - ərazi bütövlüyü, suverenlik və sərhədlərin toxunulmazlığını ardıcıl şəkildə gündəmdə saxlayıb. Nəticədə BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri və digər beynəlxalq sənədlər Azərbaycanın haqlı mövqeyini təsdiqləyib. Azərbaycanın BMT komissiyalarında iştirakı eyni zamanda ölkənin qlobal gündəliyin formalaşmasına verdiyi töhfə ilə də seçilir. İqlim dəyişikliyi, dayanıqlı inkişaf, humanitar məsələlər, gender bərabərliyi, qaçqın və məcburi köçkünlərin hüquqları kimi mövzular üzrə Azərbaycan konstruktiv təşəbbüslərlə çıxış edir. Xüsusilə özünün məcburi köçkün təcrübəsini beynəlxalq platformalarda paylaşaraq, bu sahədə real problemlərin və həll yollarının müzakirəsinə praktiki töhfə verir.

**Postmünaqişə dövründə Azərbaycanın BMT-də fəaliyyəti daha uğurlu xarakter alır**

Bu günlərdə diqqət çəkən daha bir mühüm hadisə ölkəmizin BMT yanında Daimi Nümayəndəliyinin təqdim etdiyi məktub və ona əlavə edilmiş bəyannamənin BMT Baş Assambleyasının və BMT Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayılması oldu. Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Tofiq Musayev tərəfindən BMT-nin Baş katibinə ünvanlanmış məktubda Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təşkilatçılığı ilə Bakıda keçirilmiş "İtkin düşmüş şəxslər məsələsinin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın gücləndirilməsi" mövzusunda beynəlxalq konfransda qəbul olunmuş Bəyannamə təqdim edilib.

Qeyd olunan beynəlxalq konfrans 9-11 oktyabr 2025-ci il tarixlərində Bakıda baş tutub və müxtəlif ölkələrdən, eləcə də beynəlxalq təşkilatlardan olan nümayəndələri bir araya gətirib. Tədbir itkin düşmüş şəxslər probleminin beynəlxalq humanitar hüquq və insan hüquqları kontekstində müzakirəsinə həsr olunub. Bəyannamədə silahlı münaqişələr nəticəsində itkin düşmüş şəxslərin sayının artmasından ciddi narahatlıq ifadə olunur, ailələrin yaxınlarının taleyi ilə bağlı həqiqəti bilmək hüququ bir daha təsdiqlənir. Sənəddə dövlətlərin beynəlxalq humanitar hüquqa və insan hüquqları hüququna hörmət etməsinin vacibliyi vurğulanır. Eyni zamanda, tərəflər silahlı münaqişələr zamanı insanların itkin düşməsinin qarşısının alınması üçün mümkün bütün tədbirlərin görülməsinə, itkin düşmüş şəxslərin taleyi ilə bağlı məlumatların təqdim edilməsinə çağırılır. Bəyannamədə mina və partlamamış hərbi sursatların itkin şəxslərin müəyyən edilməsinə maneə yaratdığı da xüsusi qeyd olunur. Sənəddə dövlətlərə, beynəlxalq və qeyri-hökumət təşkilatlarına itkin düşmüş şəxslər probleminin həlli istiqamətində əməkdaşlığın gücləndirilməsi, ən yaxşı təcrübələrin mübadiləsi, eləcə də məhkəmə-tibbi ekspertiza və yeni texnologiyalardan istifadə tövsiyə edilir. Məktub və əlavə olunmuş Bəyannamə BMT Baş Assambleyasının gündəliyində "Silahlı münaqişələrin qarşısının alınması", "İnsan hüquqlarının təşviqi və müdafiəsi", "İrqçilik və ayrı-seçkiliyin aradan qaldırılması" və "Hüququn aliliyi" mövzuları üzrə rəsmi sənəd kimi yayılıb. Bütün bunlar həm də o deməkdir ki, postmünaqişə dövründə Azərbaycanın BMT-də fəaliyyəti daha da aktuallaşıb. Azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri, mina təhlükəsi, ekoloji fəsadlar və mədəni irsin qorunması kimi məsələlər BMT platformalarında gündəmə gətirilir. Bu, beynəlxalq ictimaiyyətin diqqətini real problemlərə yönəltməklə yanaşı, Azərbaycanın şəffaf və açıq siyasət yürütməsinin göstəricisidir. Azərbaycanın BMT-də onun komissiyalarında təmsilçiliyi sadəcə formal iştirak deyil, düşünülmüş və məqsədyönlü xarici siyasət strategiyasının tərkib hissəsidir. Bu təmsilçilik ölkəmizə beynəlxalq proseslərdə aktiv rol oynamaq, milli maraqlarını qorumaq və qlobal çağırışlara cavab verən məsuliyyətli dövlət kimi çıxış etmək imkanı yaradır. Azərbaycanın artan diplomatik fəallığı göstərir ki, BMT-də, onun komissiyalarında iştirak gələcəkdə də ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsində mühüm rol oynamağa davam edəcək.

*Tahir TAĞIYEV*

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.*